# Heydər Əliyev Fondu Şəkidə xüsusi qayğıya ehtiyacı olan uşaqlarla birgə





**Avqustun 26-da Heydər Əliyev Fondunun uşaqlar üçün keçirdiyi növbəti şənliyin ünvanı Şəki şəhəri olub.**

AZƏRTAC xəbər verir ki, fondun Şəkidə 6 saylı Uşaq Evi Sosial Xidmət Müəssisəsində təşkil etdiyi şənlikdə azyaşlılar və yeniyetmələr müxtəlif oyunlar və müsabiqələr vasitəsilə bacarıq və qabiliyyətlərini nümayiş etdirib, yayovqatlı yaddaqalan bir gün keçiriblər. Təşkil edilən oyunlar - "Xəzinə ovu", "Balonlu estafet", "Sehrbaz" şou və digərləri uşaqların həm istirahətinin səmərəli təşkilinə, həm də inkişafına bir töhfə olub.





Azərbaycan.- 2024.- 27 avqust, №183.- S.3.